Azərbaycan.- 2021.- 18 aprel. S.1; 4.

Azərbaycanla Belarus arasında siyasi müstəvidə yaranan qırılmaz dostluq telləri iqtisadi əlaqələrin bütün istiqamətlərdə dolğun və hərtərəfli inkişafına təkan verir.



# Belarus işğaldan azad edilmiş ərazilərimizdə bərpa işlərinə qoşulmağa hazırdır

## Bu, İlham Əliyevin nüfuzu, Azərbaycanın isə etibarlı tərəfdaş ölkə olmasının hesabınadır

Hər iki dövlət başçısının qarşılıqlı səfərləri tərəflər arasında yüksək səviyyədə etimadın olduğunu və ölkələrimizin konkret nəticələrə hədəfləndiyini göstərir. Azərbaycan və Belarus iştirak etdikləri bütün beynəlxalq strukturlarda bir-birinə dəstək verir və bu dəstəyin səbəbini obyektiv arqumentlərlə əsaslandırırlar.

Bu baxımdan cari il aprelin 14-də iki dövlət başçısının iştirakı ilə qarşılıqlı iqtisadi münasibətlərin inkişafına xidmət edən Azərbaycan-Belarus sənədlərinin imzalanması mərasimi də xüsusi əhəmiyyət kəsb edir. Tədbirdə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Belarus Respublikasının Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi arasında baytarlıq sahəsində anlaşma və əməkdaşlıq, ölkəmizin Dövlət Turizm Agentliyi ilə Belarusun Milli Turizm Agentliyi arasında turizm sahəsində əməkdaşlıq və Azərbaycan Energetika Nazirliyi ilə Belarusun Energetika Nazirliyi arasında energetika sahəsində əməkdaşlıq məsələlərinə dair anlaşma memorandumları imzalanmışdır.

*Ardı 4-cü səh.*





# Belarus işğaldan azad edilmiş ərazilərimizdə bərpa işlərinə qoşulmağa hazırdır

## Bu, İlham Əliyevin nüfuzu, Azərbaycanın isə etibarlı tərəfdaş ölkə olmasının hesabınadır

*Əvvəli 1-ci səh.*

Amma iki ölkənin iqtisadi əlaqələrinin perspektivləri yalnız bu üç sənədlə məhdudlaşmır. Belə ki, dövlət başçıları ikitərəfli görüşlərində və bəyanatlarında qarşılıqlı əməkdaşlığın daha geniş sahələri əhatə edəcəyini vurğulamış və adıçəkilən müqavilələrdə razılaşdırılan əməkdaşlıq sahələrinə daxil olmayan istiqamətləri də müzakirə etmişlər.

Prezident İlham Əliyev bəyanatında Azərbaycan-Belarus münasibətlərinin tarixin sınağından uğurla çıxdığını, qarşılıqlı əlaqələrin bütün dövrlərində onların inkişafı və dərinləşməsi ilə bağlı məsələlərin diplomatiya müstəvisində həll edildiyini bildirmişdir: "Bizim aramızda heç vaxt həll edilməmiş və ya hansısa operativ müdaxilə tələb edən məsələlər olmayıb. Biz hədəflərimizi çox dəqiq müəyyən etmişik, icraçılara konkret tapşırıqlar vermişik və qarşıya qoyulmuş məsələlərin reallaşdırılmasına nəzarət etmişik".

Dövlətimizin başçısı həmçinin bu görüşün münasibətlərimizin daha da möhkəmlənməsi məsələlərinə həsr olunduğunu, əmtəə dövriyyəsinin şaxələndirilməsi və artırılması çərçivəsində gələcək əməkdaşlığın konkret istiqamətlərinin müəyyən edildiyini bildirmişdir: "...məhz energetika sahəsində əməkdaşlığın genişləndirilməsi məsələlərini nəzərdən keçirmək niyyətindəyik, yəni Belarusun neftayırma zavodlarına təkcə xam neft çatdırmaqla kifayətlənməyəcəyik".

Azərbaycan Prezidenti Qarabağda işğaldan azad olunmuş ərazilərin bərpasında bir sıra istiqamətlər üzrə - şəhərsalma, infrastrukturun yaradılması və kənd təsərrüfatının inkişafı sahələrində Belarus şirkətlərinin gələcək iştirakı ilə bağlı məsələlərin geniş müzakirə edildiyini bildirmiş, bu ölkənin aqroşəhərciklər yaradılması sahəsində təcrübəsini qeyd etmişdir.

Dövlətimizin başçısı işğaldan azad edilmiş ərazilərin bərpasına yalnız dost ölkələrin şirkətlərinin cəlb ediləcəyini bir daha xatırlatmış, Belarusun bu sırada üç ölkədən sonra dördüncü olacağını bildirmişdir.

Azərbaycanla Belarus arasında ikitərəfli iqtisadi əlaqələrin inkişafının böyük bir seqmentini sənaye kooperasiyası təşkil edir. Ölkəmizdə Belarus traktorlarının yığılması ilə başlanan belə layihələr sonra başqa istehsal sahələrinə keçərək avtomobillər, yük maşınları, kombaynlar, avtobuslar və "Yaşıl Qarabağ zonası" konsepsiyası çərçivəsində elektrobusların istehsalını da əhatə edəcək. Prezident İlham Əliyev: "Alternativ enerji mənbələri yaradılmasında Belarus şirkətlərinin iştirakı ilə bağlı məsələləri də müzakirə etdik. Bir sözlə, görüləsi işlər çoxdur. Mən bu gün də, dünən də qonaqlara dedim ki, erməni işğalından azad edilmiş ərazilərin sahəsi Lüksemburqdan dörd dəfə böyükdür. İşin həcmini təsəvvür edə bilərsiniz".

Belarus Prezidenti də Bakıda etiraf etmişdir ki, zəngin resurslara malik olan Azərbaycan qapılarını müxtəlif sahələrdə iqtisadi əməkdaşlıq üçün onların üzünə geniş açmışdır. Ardınca ölkəsinin Azərbaycanla birgə, çiyin-çiyinə və məsuliyyətlə fəaliyyət göstərməyə hazır olduğunu bildirmişdir: "Əlbəttə, ticari-iqtisadi sahədə əməkdaşlıq, kooperasiyanın daha yüksək mərhələsinə keçid, müştərək müəssisələr, texnologiyanın verilməsi və burada Azərbaycana lazım olan, lakin ənənəvi sovet dövründə və indi də malik olmadıqları istehsalatlar yaradılması barədə danışdıq. Buyurun, biz burada, xüsusən işğaldan azad olunmuş və bərpa ediləcək ərazilərdə birgə müəssisələr yaratmağa hazırıq".

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***